*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 194-198* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.1.194*

**İNTERTEKSTUALLIQ VƏ MULTİDİSİPLİNAR ƏLAQƏLƏR**

# Süni intellektin ədəbiyyatşünaslığa tətbiqinin əsas istiqamətləri

**Şəhanə Əliyeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: shahane89@gmail.com

**Annotasiya.** Günümüzdə mədəni faktların, o cümlədən bədii mətnlərin özündə sıxılmış informasiya saxlayan bir sistem kimi tədqiqi  geniş yayılmışdır. Bu baxımdan Sİ-nin tətbiqi təkcə texniki elm sahələrini yox, humanitar düşüncədə gedən prosesləri, ictimai, sosial, mədəni həyatı da əhatə edir. Ədəbiyyatşünaslıqda Sİ, əsasən, iki istiqamətdə – bədii mətnlərin analizində və ədəbiyyatşünaslığa dair tədqiqatların təhlilində tətbiq edilə bilər. Bədii mətnlərin istehsalı istiqamətində Sİ-nin iş prinsipi mümkün məlumat bazaları, sonsuz sayda informasiyanın toplanıb qorunduğu data mərkəzlər əsasında qurulduğundan struktur baxımından daha çox eyni və ya oxşar mətnlər istehsal edir. Bu da hər hansı etnik-psixoloji detal və motivin işlənmə ehtimalını azaldır. Ədəbiyyatşünaslığa dair tədqiqlərin analizi və sistemləşdirilməsində Sİ mühüm rol oynayır və akademik yazı qaydalarının təşkilini mükəmməl surətdə həyata keçirir.
**Açar sözlər:** süni intellekt, mətn, müəllif, təhlil, informasiya

**Məqalə tarixçəsi:** göndərilib – 01.03.2024; qəbul edilib – 14.03.2024

# The main directions of applying artificial intelligence to literary studies

**Shahana Aliyeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: shahane89@gmail.com

**Abstract.** Today, the study of cultural facts, including literary texts, as a system that stores information compressed in itself is widespread.From this point of view, the application of AI covers not only the fields of technical sciences, but also the processes of humanitarian thought, public, social and cultural life.AI in literary studies can be applied mainly in two directions – in the analysis of literary texts and in the analysis of studies on literary studies.The working principle of AI in the production of literary texts is based on possible databases, data centers where an infinite amount of information is collected and protected, so it produces more identical or similar texts in terms of structure.This reduces the possibility of developing any ethno-psychological details and motifs.AI

plays an important role in the analysis and systematization of literature studies and perfectly implements the organization of academic writing rules.

**Keywords:** artifical intelligence, text, author, analysis, information

**Article history:** received – 01.03.2024; accepted − 14.03.2024

## Giriş / *Introduction*

Bədii mətnə yanaşmaların müxtəlifliyi insanın dünyanı müxtəlif cür qavraması və şərhindən irəli gəlir. Hələ ibtidai mərhələdən başlayaraq ən son elmi-texnoloji inqilablara qədər uzanan yolda fərdin və cəmiyyətin şüurunda, yaşayış tərzində, vizual görünüşündə baş verən dəyişikliklər öz əksini müxtəlif tipli yazılı mətnlərdə tapıb. Mədəni inkişafın əsas göstəricilərindən olan yazılı mətn ortaya qoymaq, artıq cəmiyyətin mədəni kanonlar vasitəsilə düşünülməsi, hadisə və prosesləri özünəməxsus şəkildə qavramasının və paylaşmaq, gələcək nəsillərə ötürmək ehtiyacının yaranmasının sübutu idi. Bu *qavrayış və düşüncə prosesi* insan təxəyyülünün ən müxtəlif hüdudlarını əhatə edərək reallığın subyektiv əksinə və qarşılaşdığı hadisələrin özünəməxsus izahına gətirib çıxarırdı. Beləliklə, öncədən məlum olan informasiya ilə yeni əldə olunan nailiyyətləri qovuşdurma cəhdləri ədəbi, mədəni nümunələrin meydana gəlməsini şərtləndirmişdir.

## Əsas hissə / *Main part*

Günümüzdə mədəni faktların, o cümlədən bədii mətnlərin insan təxəyyülünün nəticəsi olmaqla yanaşı, özündə sıxılmış informasiya saxlayan bir sistem kimi tədqiqi  geniş yayılmışdır. Bu zaman mətnin “potensialı” təkcə estetik həzz və bədii ifadə tərzi ilə üzə çıxmır; insan şüurunun və təxəyyülünün məhsulu olan bədii mətnin informativ yükü – böyük mənada bəşəriyyətin keçdiyi mərhələlərin poetik təhkiyəsinin arxasında duran real prosesləri və impulsiv təkanları özündə ehtiva edir. Müasir ədəbiyyatşünaslıq da mətni təhlil edərkən tarixi, sosial, psixoloji, mədəni aspektləri nəzərə almaqla tədqiqat predmetindən asılı olaraq bir və ya bir neçə aspekti kompleks şəkildə tətbiq edə bilir.

Qeyd etdiyimiz kimi, insan daim ona məlum informasiyanı (o cümlədən şüuraltı informasiyanı) təkmilləşdirir, dövrünün qazanılmış təcrübə və yeni bilik ehtiyatı ilə zənginləşdirir. Ən son texnoloji nailiyyətlərdən sayılan süni intellektin (bundan sonra – Sİ) mahiyyəti və onun elmin müxtəlif sahələrinə tətbiqi günümüzün ən aktual məsələlərindəndir. Sİ-nin tətbiqi təkcə texniki elm sahələrini yox, humanitar düşüncədə gedən prosesləri, ictimai, sosial, mədəni həyatı da əhatə edir. Onsuz da sərhədsiz olan mövcud informasiya bazasına daim yeni-yeni faktlar, nəzəriyyələr, müddəalar daxil olur; bu sistemin əlçatan və hərəkiliyi ən son texnoloji yeniliklərin tətbiqi ilə düz mütənasibdir. Sİ sosial varlıq olan insanın müxtəlif bacarıqlarını (sosial bacarıqlar, yaradıcı düşüncə bacarığı və s.) rəqəmsallaşdıraraq mədəni, ədəbi fakta yeni tipli yanaşmanın meydana çıxmasına yol açır.

Süni intellekt mövcud informasiya bazasına əsaslanaraq açar sözlərin köməyilə daha genişmiqyaslı axtarışlar apararaq müəyyən qanunauyğunluqların müəyyənləşdirilməsi və qruplaşdırılmasında mühüm rol oynayır. Bu baxımdan mətnlərin tədqiqində Sİ-dən istifadə işi asanlaşdırmağa, vaxtdan səmərəli istifadə etməyə yardımçı olur. Ədəbiyyatşünaslıqda Sİ, əsasən, iki istiqamətdə – bədii mətnlərin analizində və ədəbiyyatşünaslığa dair tədqiqatların tapılmasında, təhlilində tətbiq edilə bilər.

Artıq yeni bir eraya qədəm qoyduğumuz məlumdur: sərhədsiz informasiya axını, texnogen inqilablar, insan faktorunun sıxışdırılaraq robotlaşdırılması, bir düymədən asılılıq təbii surətdə mövcud olan və ya insanın fiziki və şüurlu fəaliyyətinin nəticəsində meydana çıxan nəsnələrin elektron variantlarının meydana gəlməsi ilə nəticələndi. Bu inqilab təkcə informasiya inqilabı yox, həm də mədəni inqilab oldu: bədii yaradıcılığın klassik anlamda qavradığımız mahiyyəti dəyişərək alternativ yaradıcılıq üsulları meydana gəldi. “...bu gün çox danışmaq, informasiya ötürmək, təsvir və təqdim etmək nəsr narrativlərinin gündəmdə qalmasını artıq təmin edə bilmir. Bunları artıq süni

intellekt də edə bilir" [1] fikri də Sİ-nin çevik informasiyaötürmə qabiliyyətinin klassik təhkiyəni sıxışdırdığını təsdiqləyir. Demək olar ki, əksər koqnitiv funksiyaların Sİ tərəfindən yerinə yetirilməsi onu hesabat xarakterli, sırf informasiyayönümlü mətnlər müəllifi olması ilə yanaşı, yaradıcı təfəkkürün də istehsalçısına çevirdi. Bədii yaradıcılığın yeganə istehsalçısı kimi qəbul edilən müəllif öz yerini proqramlaşdırılmış maşına vermiş, beləliklə, ədəbiyyatşünaslığın ən mühüm halqalarından olan müəllifin mövqeyini sual altında qoymuşdur. Bu səbəbdən Sİ və müəlliflik haqları, Sİ-nin yaradıcı zəkaya alternativliyi ən yeni ədəbiyyatşünaslığı məşğul edən məsələlərdəndir.

Necə adlandırılmasından – "intellekt gücləndiricisi", "məsələlərin kollektiv həlli sistemi" (hər iki termin Vannevar Buşa məxsusdur), "süni intellekt" (Con Makkarti) – asılı olmayaraq alternativ zəka anlayışı dünyada yeni düşüncə tərzini formalaşdırdı. İllər əvvəl bir çox alimlərin gələcəkdə Sİ-nin insanı tamamilə əvəzləyəcəyi müddəaları ilə çıxışı cəmiyyətdə kifayət qədər şübhə ilə qarşılanırdı. Amma günümüzün reallığına baxanda Sİ-nin təkcə maddi yox, mənəvi istehlak vasitələrini də ələ keçirdiyinin şahidi oluruq. Kitab satışı səhifələrində tamamilə Sİ tərəfindən yazılmış kitabların maraq doğurması və kütləvi şəkildə satışı, kitab resenziyalarının tamamilə xüsusi proqramla hazırlanması bu sahədə yeni tendensiyalara gətirib çıxarıb.

Sİ-nin "əlinin altında olan" baza sərhədsiz hipermətn əsasında yaranıb. Bu da Sİ-nin insan təxəyyülünə nisbətdə intertekstual əlaqələr qurma qabiliyyətinin yüksək olmasından qaynaqlanır. Müəllif tərəfindən yaradılan intertekstuallıq bədii mətnin xüsusiyyətlərindən biri kimi çıxış edərək müəllif üslubuna çevrilə bilir. Sİ-nin isə intertekstuallıqdan başqa, yolu yoxdur. Bu baxımdan fərdi üslub yaratma, orijinallıq və eksperimentallıqdan məhrum Sİ mətnləri şablonlar çərçivəsindədir. Təbii ki, biz burada eksperimentallığı texniki anlamda işlətmirik, çünki Si-nin ortaya qoyduğu hər bir mətn eksperimentaldır.

Fransız filosofu Pol Virilio "Görmə maşını" adlı konseptual əsərində insanın real görmə qabiliyyəti ilə "optik protezlər" vasitəsilə görməsi arasında köklü fərqin olduğu müddəası ilə çıxış edir. Müşahidəni başqa bir pilləyə çatdıran cihazlar – linza, mikroskop, teleskop, foto və videokamera insana xas görmə qabiliyyətindən daha artığını təqdim edir [4, s.12]. Pol Virilionun fikrincə, artıq bir çox məsələlərin həllində insan görməsi öz məhdudluğu nəticəsində çarəsiz qalır, davamlı olaraq "görmə maşınları"na müraciət edir ki, bu da özünəməxsus "korluğa" gətirib çıxarır. Hal-hazırda Sİ-nin də funksiyası haradasa bu səviyyədədir: bu da istənilən problemi Sİ vasitəsilə həll etməyə çalışan və ən qısa zamanda dolğun və düzgün nəticə alan insanın özü düşünmə, analiz etmə, nəticə çıxarma qabiliyyətinin korşalmasına, hazır düstur və qəliblər vasitəsilə işləmə vərdişlərinin təbii vərdiş və bacarıqları sıradan çıxarmasına gətirib çıxarır. İnsan təxəyyülü öz parlaqlığı və çatışmazlıqları ilə dəyərlidir. Müəyyən bir faktın mədəni fakta çevrilməsi də məhz insan ağlı və təxəyyülünün sayəsində mümkün olur. Sİ bədii mətndə tarixi xronologiyanı, konkret dövrün xüsusiyyətlərini tərtib edə bilsə də, ədəbi cərəyanların əsas xüsusiyyətlərinə bələd olub göstərilən cərəyan və ədəbi istiqamətə uyğun mətn ortaya qoysa belə, yenə də insan təxəyyülü, real insani yaşantı və duyğuların bədii əksi qarşısında aciz qalır.

Sİ-nin iş prinsipi mümkün məlumat bazaları, sonsuz sayda informasiyanın toplanıb qorunduğu data mərkəzlər əsasında qurulduğundan struktur baxımından daha çox eyni və ya oxşar mətnlər istehsal edir. Bu da hər hansı etnik-psixoloji detal və motivin işlənmə ehtimalını azaldır. Həmçinin, mövcud məlumat bazası əsasında verilmiş situasiyalara uyğun süjet quran Sİ hazır sxemlər üzərində işlədiyindən finalların təkrarı qaçılmazdır. Bütün bu çatışmazlıqların aradan qaldırılacağı, daha təkmil mətn istehsal edən proqramların meydana çıxacağı da istisna deyil. Amma bu mətn istehsalı proqramları bədii düşüncə tarixini, daha geniş yanaşsaq, humanitar fikri zənginləşdirəcəkmi? Real müəlliflərin robot müəllifə çevrilməsi, yaradıcı insan faktorunun aradan qalxması heç bir tarixi-mədəni yaddaşa söykənməyən mətn istehsalı onsuz da günümüzdə bol olan informasiyanın yükünü daha da artırmağa gətirib çıxarır. Hələ 1945-ci ildə "Biz necə düşünə bilirik" məqaləsində görkəmli Amerika alimi Vannevar Buş "bəşəriyyətin təcrübələr məcmusunun ağlagəlməz sürətlə artdığı və bu mənbələrdən fayda götürmək qabiliyyətimizin sərhədlərini ötüb keçdiyini" qeyd edirdi" [2].

Mümkündür ki, Sİ mütəxəssisləri mütləq nəticəyə çatmaqdan ötrü, həqiqətən, heyrətamiz bədii mətn kodlaşdıra, orijinaldan seçilməyən nüsxə ortaya qoya bildilər. Amma bu addım nəyi sübut edəcək? İnsan təxəyyülünün mənasızlığını, ali şüurlu varlıq kimi insana xas təsəvvür və təxəyyül bacarıqlarının bir düymə ilə əvəz olunmasınımı? İnsan beynində gedən kimyəvi və psixoloji prosesləri sxem və kodlara tabe etməyin sonu nə ilə nəticələnəcək? İbtidai şüur səviyyəsindən texnogen şüura keçən bəşəriyyət öz inkişafının pik nöqtəsində yenə geriyəmi qayıtmaq istəyir? Əgər müəllif kimliyi, milli mənsubiyyət, dini faktorlar məlum olmayacaqsa, hansı mədəni faktdan söhbət gedə bilər? Artıq burada mətnin bir çox keyfiyyətləri öz əhəmiyyətini itirir: yerinə yalnız sxemlər, bədii yaradıcılığın məhdud çərçivədə mövcudolma faktı gəlir. Mümkündür ki, Sİ tərəfindən yazılmış mətnlərdə mükəmməl cümlə quruluşları, obraz və hadisələrin qarşılıqlı şəkildə vəhdəti, mövcud üslubları yamsılamaq bacarığı aldadıcı təsir bağışlasın. Amma burada fərdi üslub hadisəsindən söz açmaq mümkün deyil: Sİ mövcud üslublara parodiya yolunu seçərək fərdiliyin, orijinallığın üzərindən xətt çəkir. Təbii ki, digər mətnlərdən təsirlənmədən, qarşılıqlı münasibətdə olmadan heç bir mədəni fakt üzə çıxa bilməz. Amma bu təsirlənmənin belə özünəməxsus mədəni-tarixi, psixoloji əsasları olur. Sİ-nin təsirə məruz qalması isə təkrarlanan kodlar tezliyinə müraciətdən başqa bir şey deyil və düşünürük ki, bu səbəbdən Sİ tərəfindən istehsal olunan mətnləri ənənəvi ədəbiyyata alternativ kimi götürmək doğru deyil.

Müasir dünyanın yeni quruluşunun əsas meyarlarından olan qloballaşma, mədəniyyətlərarası yaxınlaşma və inteqrasiya surroqat mədəniyyətlərin meydana çıxmasını şərtləndirdi. Sİ-nin məhz belə bir dönəmdə geniş yayılması da müvafiq olaraq surroqat ədəbiyyatın yaranmasına gətirib çıxartdı. Bu mətnlər “Sİ yeni xarakter yarada bilərmi?”, “Sİ-də müəlliflik hüququ varmı?” kimi sualları aktuallaşdırır və müəllif kimliyi Sİ mətnlərinin sayəsində sıradan çıxır, bu “qurama bədii mətnlər” Rolan Bartın “müəllifin ölümü” konsepsiyasının əyani nümunəsinə çevrilir.

Sİ ilə istehsal olunan mətnlər iki səviyyədə qurulur: 1. Cümlə quruluşunun qrammatik cəhətdən düzgünlüyünə nəzarət edən sintaktik səviyyə. 2. Cümlənin mənası, daşıdığı məna yükünə cavabdeh olan semantik səviyyə. Bu səviyyələrin təşkili də Təbii Dil Emalının (NLP-Natural Language Processing) nə dərəcədə mükəmməl olmasından asılıdır. Təbii Dil Emalı canlı danışıq dilinin anlaşılması və təbii dilə maksimum yaxın adekvat cavabların hazırlanmasına cavabdeh olan texnologiyadır. Bu texnologiya nəticəsində proqram təminatı mətn emalı zamanı cümlənin qrammatik qaydalara uyğunluğunu mövcud lüğət bazalarından və xüsusi proqramlardan istifadə etməklə müəyyənləşdirə bilər. Ancaq frazeoloji birləşmələrin, bədii mətnin əsas göstəricilərindən olan poetik detallar, bədii təsvir və ifadə vasitələrindən istifadə, onların kontekstdə anlaşılması və işlədilməsi Sİ-ni adi mətnlərə nisbətən daha genişmiqyaslı proqramlara müraciət etməyə vadar edir. “Təbii dil emalı ədəbiyyata tətbiq edildikdə, adətən, interpretasiyaya açıq olan metaforlar, idiomatik ifadələr və narrativ strukturlar arasında axtarış etməli olur” [3], bəzən adi danışıq dili və ya informativ mətnlərlə bədii dil arasında olan fərq nəzərə alınmır. Digər tərəfdən isə müəyyən bir ədəbi cərəyan və ya istiqamətə dair bədii mətn “istehsal edərkən” bu istiqamətin bütün xüsusiyyət və göstəricilərindən maksimum istifadə də Sİ-ni “ələ verir” və “yeni təcrübəsiz müəllifin mətni” effektini yaradır.

Yuxarıda qeyd etdiyimiz kimi, Sİ-nin geniş tətbiq sahələrindən biri də ədəbiyyatşünaslığa dair tədqiqlərdir. Hal-hazırda müəyyən kitab haqqında ədəbi resenziya yazan Reseach Rabbit, Semantic Scholar, Rayyan, Iris.ai, SciSpace tədqiqatçılar üçün IBM Watson, Google Scholar, Elicit, Consensus, ReadCube Paper kimi proqramların istifadəyə verilməsi konkret mətn haqqında ətraflı məlumat hazırlamağa imkan yaradır. Faktdır ki, Sİ akademik yazı qaydalarının təşkilini mükəmməl surətdə həyata keçirir: xüsusilə tədqiqatın strukturu baxımından hətta real tədqiqatçının nəzərindən qaçan məqamları diqqətlə işləyir, verilənlərdən çıxış edərək müəyyən elmi nəticəyə gəlir. Sİ struktur analiz aparmaq, statistik məlumatların daha sürətli və dolğun təqdimi, faktların müqayisəsi və müəyyən kateqoriyaların işlənmə tezliyinin müəyyən edilməsi baxımından əhəmiyyət daşıya bilər. Lakin internet məkanında düzgün, etibarlı mənbələrlə yanaşı, çox sayda etibarsız, yanlış informasiyalar da mövcuddur. Bu baxımdan Sİ tərəfindən yazılan resenziyaların hansı datalara

müraciət edəcəyi, etibarlı-etibarsız mənbələr arasında seçimi kifayət qədər mübahisəlidir. Daha bir məsələ Sİ tərəfindən istehsal olunan mətnlərin plagiatlıqda istifadə olunması faktı ilə bağlıdır. Çünki Sİ orijinal elmi-tədqiqat işi yaratmır, mövcud tədqiqatlardan ortaq nəticələri ümumiləşdirərək təqdim edir. Sİ birbaşa internet məkanında mövcud datalara – informasiya yuvacıqlarına istinad etdiyinə görə ən müxtəlif dillərdə ədəbiyyatımıza dair fundamental araşdırmaların elektron variantlarının internetdə yerləşdirilməsinə böyük ehtiyac var. Məsələn, sadə bir misal gətirək: azərbaycandilli internet məkanında Nizami Gəncəvinin Azərbaycan şairi olduğu qeyd olunmasına rəğmən ingilisdilli və rusdilli mənbələr, əsasən, fars ədəbiyyatı nümayəndəsi kimi təqdim edir ki, bu da Sİ-nin işində yanlış mənbələrə müraciətinə gətirib çıxarır.

## Nəticə / *Conclusion*

Göründüyü kimi, istər bədii mətnin yaranması, istərsə də təhlil və tədqiqi alternativ zəka sayəsində yeni bir mərhələyə qədəm qoyur. Bu gün Sİ-nin fəaliyyətinin hətta humanitar elmlərə də tətbiqi texniki və humanitar elmlərin sərhədində yerləşən Rəqəmsal humanitar elmlər (Digital humanities) kimi yeni sahələrin yaranmasını labüd edir.

## Ədəbiyyat / *References*


1. Yaqubova, Ml. Texnologiya çağı, şifahi mədəniyyət və bizim nəsr. https://edebiyyatqazeti.az/news/edebi-tenqid/10553-texnologiya-cagi-sifahi-medeniyyet-ve-bizim-nesr
2. Bush, V. As we may think https://web.mit.edu/STS.035/www/PDFs/think.pdf
3. Canda, J. Enhancing Literary Analysis with AI: Uncovering Themes and Patternshttps://medium.com/@jam.canda/enhancing-literary-analysis-with-ai-uncovering-themes-and-patterns-023d0a21bdd6
4. Вирильо, П. Машина зрения. – Санкт-Петербург: Наука, 2004.


# Основные направления применения искусственного интеллекта в литературе


**Шахана Алиева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: shahane89@gmail.com



**Резюме.** Сегодня широко распространено изучение фактов культуры, в том числе художественных текстов, как системы, хранящей в себе сжатую информацию.С этой точки зрения применение ИИ охватывает не только области технических наук, но и процессы гуманитарной мысли, общественной, социальной и культурной жизни.ИИ в литературоведении может применяться преимущественно в двух направлениях – при анализе художественных текстов и при анализе исследований по литературоведению.Принцип работы ИИ при производстве художественных текстов основан на возможных базах данных, центрах обработки данных, где собирается и защищается бесконечное количество информации, поэтому он производит больше идентичных или похожих по структуре текстов.Это снижает возможность разработки каких-либо этнопсихологических деталей и мотивов.ИИ играет важную роль в анализе и систематизации литературоведения и прекрасно реализует организацию правил академического письма.



**Ключевые слова:** искусственный интеллект, текст, автор, анализ, информация